Kaspi 2019.- 2-4 noyabr.- S.23.



Nəciməddin Mürvətov

## GET

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə "nələr"i yıx, get.

Bu da bəxtimizin tale qisməti,
Görüşdük, danışdıq, ayrılaq gərək.
Çəkməmiş ətrafdan nəzər-diqqəti,
Çaşmamış, azmamış tez qərar verək.

Oyun oynamağın de mənası nə,
Onsuz haçalanır bu yolun sonu.
Belədə qazanc tək kinayə, tənə,
Bir də sözümüzün nifrət kin donu.

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə "nələr"i yıx, get.

## SINMA

Kökləmə ruhunu qüssəyə, qəmə,
Gəlir onlar özü tapır insanı.
Həyatda heç zaman uduzdum demə,
Ara yaşamına ən xoş imkanı.

Köksündə ürəyin sənə ən yaxın,
Qoru bəxş etməklə ona sevinci.
Üstünə hücumla etsə dərd axın,
Ağrıyan o olar şəksiz birinci.

Budur dünyamızın dövran, gərdişi,
Kədərdən ayırır fərəhi hər an.
Demə "görməyəydim gərək bu işi,"
Qərarlar tək gəlir uca Tanrıdan.

Sınma, ağrıların önündə şax dur,
Yıxılsam qalxmağım olacaq çətin.
Göstər əzm, iradə, sarsılmaz qürur,
Belədə qorunar, bir ləyaqətin.

Dünyadan küsdünsə, bitdi iş demək,
Onda vida söylə qalan ömrünə.
Özünsən özünə ən yaxın kömək,
Yetərsən umduğun o xoşbəxt günə.

## HƏRƏYƏ BİR ÖMÜR

Günlər ötüb gedir səssiz-səmirsiz,
Qəlpələr qoparır bir-bir ömürdən.
Dünya təknəsini qoymur xəmirsiz,
Zamanı dəyirman, biz dən, ömür dən

Çoxdur aramızda dəymiş də, kal da,
Çiçəkkən çox erkən solanlar da var.
Olanlar mayası haram, halal da
Erkən bar-bəhərə dolanlar da var.

Oyuq, hər nə varsa xislətimizdə,
Nə artıq, nə əksik, zərrə qədər yox.
Qarışıq - bulaşıq, saf da, təmiz də,
Min-bir çalar qatır həyata bax, çox.

Seçib, ayırsaq da bu yaxşı, bu pis,
Tanıyır hərəni, hərə bir cürə.
Bambaşqa hərədə ağıl, duyğu, hiss
Birinə Yer dümdüz, birinə kürə.

Gəlmişik dünyaya yaşayaq, köçək
Taleli, qismətli bir ömür payı.
Yoxdur ki, ixtiyar ondan biz seçək
Yaxşını götürüb, tullayaq zayı.

Günlər ötüb gedir səssiz-səmirsiz,
Qəlpələr qoparır bir-bir ömürdən.
Dünya təknəsini qoymur xəmirsiz,
Zamanı dəyirman, biz dən, ömür dən

## GÖZ YAŞI

Təkcə acizlikdən, qorxudan deyil,
Ürək yananda da axır göz yaşı.
Acılı, şirinli xatirələrə
Uyub, dalanda da axır göz yaşı.

Görüb səhvlərindən utanmaq da var,
Uğura yürüməkdən usanmaq da var.
Çaşmaqla nadana inanmaq da var,
Yada salanda da axır göz yaşı.

Çıxmır ki qarşına düzlər hər kərə,
Bəzən tuş gəlirsən böhtana, şərə.
Bilirsən şeytanlıq, bağlı bənd-bərə,
"Heçdən bəla"nda da axır göz yaşı.

Qəlbini doldurur sevgi, məhəbbət,
Ağlını başından alır bir afət.
Yandırır, göynədir köksünü həsrət,
Ürək dolanda da axır göz yaşı.

Olur kəsilən də canına yağı,
Arxası, köməyi, güclü dayağı.
Çıxır "biri" yandan əldə bayrağı,
Həyan olanda da axır göz yaşı.

Mənə - Nəcməddinə yetər, edər bəs,
Ruhumu anlaya, duya bircə kəs.
Onda yaratmağa artar şövq, həvəs,
Sözlə qalanda da axır göz yaşı.

2 noyabr 2019

WWW.KASPI.AZ